## GÜNÜMÜZÜN ƏSAS TƏLƏBİ:

# Gənc nəsil milli ruhda tərbiyə olunmalıdır



**Dövlətimizin başçısı İlham Əliyev bildirir ki, cəmiyyətimizdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz. Bu çağırışlardan biri də gənc nəslimizin milli ruhda tərbiyə olunmasıdır.**

Bu fakt da daim önə çəkilir ki, çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən ən əsası bizim mədəniyyətimiz, ədəbiyyatımız, şairlərimiz, yazıçılarımızdır. Azərbaycan xalqı bəşər tarixinə böyük, dəyərli, dahi simalar bəxş etmiş, onların əsərləri, yaradıcılığı dünya elmini, mədəniyyətini zənginləşdirmiş, insanları maarifləndirmişdir. Ulu öndər Heydər Əliyevin bu fikirləri qeyd etdiklərimizin ümumiləşdirilmiş ifadəsidir: "İnsanların ürəyinə, qəlbinə təsir edə bilən ədəbiyyatımız olubdur, şeirimiz olubdur və həmin şeirlər, həmin sözlər doğrudan da xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır. Bəlkə bu milli psixologiya, milli ideologiya indi böyük bir sistem şəklində deyil, yeni bir sənəd, bir kitab, bir proqram yoxdur. Amma bu olmalıdır."

Qeyd etdiyimiz kimi, mənəvi dəyərlərimizin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti vardır. Muğam həm ədəbiyyat, həm musiqi, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir. Dövlətimizin başçısı İlham Əliyev məhz bu kimi məsələləri önə çəkərək Azərbaycan dilinin saflığının qorunması ilə bağlı Fərman imzalamışdır. Əbəs yerə deyilmir ki, keçmişini sevən, bu günü ilə qürur duyan, gələcəyə böyük ümidlərlə baxan xalq hər zaman tarixin sərt sınaqlarından üzüağ çıxar, milli varlığını, mövcudluğunu qoruyar.

Dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr verən Azərbaycanın bu il UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsi barədə qərarın qəbul olunmasında da milli-mənəvi dəyərlərimə, tarixi-mədəni irsinə bağlılığı əsas yer tutur. Bu mühüm qərar, həmçinin beynəlxalq əməkdaşlığa söykənən, elm, mədəniyyət və təhsil yolu ilə dünyanın sülh və təhlükəsizliyini qorumaq məqsədi ilə yaradılan UNESKO ilə Azərbaycan arasında tərəfdaşlıq münasibətlərinin təhlilində də əhəmiyyətli rol oynayır. Tarixə söykənərək, inkaredilməz olan bu reallıq da önə çəkilir ki, bir millətin, xalqın dəyərlərinin, dilinin əlindən alınması onun məhvi deməkdir. "Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, milli-mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik" söyləyən ulu öndər Heydər Əliyev daim bu çağırışı etmişdir ki, gələcəyimiz olan gənclər milli-mənəvi dəyərlərimizi unutmamalı, tariximizi, ana dilimizi bilməli və qorumalıdır. Bir əsas məqamı da qeyd edək ki, ulu öndər Heydər Əliyev Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsirini xüsusi vurğulayaraq, Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır. Son 16 ildə bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi atılan davamlı addımlardan daha aydın görünür. Cənab İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi, həmçinin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamı, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı, 2019-cu ilin "Nəsimi İli" elan edilməsi və sair kimi biri-birindən önəmli addımlar zəngin tariximizə, ədəbiyyatımıza, mədəniyyətimizə, milli mənəvi dəyərlərimizə sahib olmağımızdan irəli gəlir. Ölkəmizin ev sahibliyi etdiyi mədəniyyətlərarası dialoq forumlarında da daim vurğulanır ki, müxtəlif mədəniyyətlərin, dinlərin qovuşuğunda yerləşən Azərbaycan xalqlar, dövlətlər arasında körpü roluna yeni əlavələr etməklə beynəlxalq aləmdə nüfuzunu daha da möhkəmləndirir.

Azərbaycan mədəniyyətinin, milli-mənəvi sərvətlərinin qorunub saxlanılmasında, həmçinin Azərbaycan-UNESKO əlaqələrinin inkişafında böyük xidmətləri olan Heydər Əliyev Fondunun da proqram və layihələri diqqəti cəlb edir. Ölkə daxilində və dünya arenasında həyata keçirdiyi layihələrin əhəmiyyətini nəzərə alan ölkə Prezidenti İlham Əliyev Mehriban xanım Əliyevanı Vətənimizin ən ali mükafatı-"Heydər Əliyev mükafatı" ilə təltif edərkən bildirmişdir ki, Fondun bütün təşəbbüsləri milli ruha əsaslanır.

Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin ölkəmizdə "Nəsimi İli" elan edilməsi də Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfələrə işıq salmaqla yanaşı, xalqımızın çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsinin bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malik olduğunu açıqlayır. Bu mühüm addımın ölkəmizdə nəsimişünaslığın inkişafına böyük təkan verəcəyini bildirən elmi ictimaiyyət bu mühüm məqamı da önə çəkir ki, Nəsimi yaradıcılığının mübarizliyi, haqqı bütün varlığı ilə müdafiə etməsi örnək olaraq bütün xalqımıza, xüsusilə gənc nəslimizə öz müsbət təsirini göstərəcək. Bir sözlə, bu kimi mühüm qərarlar ölkəmizdə yüksək ideallara, mənəvi həyata, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına nə qədər böyük diqqət yetirildiyinin təzahürüdür. Azərbaycan gəncliyi tariximizi, ədəbiyyatımızı, milli-mənəvi dəyərlərimizi qorumalı, onların inkişafına öz töhfələrini verməlidirlər.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# BMT-nin Təlim və Tədqiqat İnstitutunun saytında Bakı Ali Neft Məktəbi haqda məqalə dərc olunub



BMT-nin Təlim və Tədqiqat İnstitutunun (UNİTAR) saytında Bakı Ali Neft Məktəbi (BANM) ilə UNITAR arasında əməkdaşlığa dair geniş məqalə dərc olunub.

Məqalədə hər iki qurum arasında əməkdaşlıq çərçivəsində "Nigeriyanın neft və qaz sənayesində kadr potensialının gücləndirilməsi" layihəsi üzrə yeddi nəfər nigeriyalı tələbənin 2019/2023-cü tədris illəri müddətində Azərbaycanın ən nüfuzlu ali təhsil müəssisələrindən olan Bakı Ali Neft Məktəbində bakalavr dərəcəsi üzrə təhsil aldığı qeyd olunub.

Yazıda həmin tələbələrin Azərbaycanda 4 il müddətində "Neft-qaz mühəndisliyi" ixtisası üzrə təhsil alması və onların Nigeriyanın neft sektoru üçün yararlı mütəxəssis kimi yetişdiriləcəyi, tədris müddətində tələbələrin nəzəri və praktiki biliklərə yiyələnəcəyi və sonda lazımi kreditləri toplayaraq BANM-in diplomunu əldə edəcəyi qeyd edilib.




Eyni zamanda, yazıda BANM-in Azərbaycanda yüksək ixtisaslı mühəndis kadrlarının hazırlanmasında liderliyi vurğulanıb.

"BANM tələbələrinə transmilli və beynəlxalq enerji şirkətlərində, eləcə də SOCAR-ın bütün filial və müəssisələrində təcrübə keçmək və iş təcrübəsi yaratmaqla məzunların dünya səviyyəli mütəxəssis olmalarına rəvac verir ".

Eyni zamanda, Nigeriya hökumətinin neft və qaz sənayesində intellektual işçi qüvvəsi yaratmaq səylərinin məntiqi nəticəsi kimi nəzəri-praktiki bacarıq və təhsili özündə cəmləşdirən unikal 4 illik təhsil planının həyata keçilməsinə verdiyi dəstəyə də xüsusi diqqət çəkilir.

"Bu inteqrasiya edilmiş sistemin tətbiqi nigeriyalı tələbələrə iş bazarının (neft-qaz sənayəsində) aktual tələblərinə uyğun olaraq müvafiq sahələrdə keyfiyyətli ali təhsil almağa imkan verəcəkdir".

Məlumat üçün bildirək ki, 19 iyun 2018-ci il tarixində Bakı Ali Neft Məktəbi (BANM) ilə BMT-nin Təlim və Tədqiqat İnstitutu (UNITAR) arasında Əməkdaşlıq haqqında İsveçrənin Cenevrə şəhərində Memorandum imzalanıb. Memorandum BANM-in rektoru Elmar Qasımov və UNITAR-ın İcraçı direktoru, BMT-nin Baş katibinin müavini Nikhil Set tərəfindən imzalanıb.

# Səbail rayon gəncləri hər zaman cənab Prezidentin yanındadır



Noyabrın 28-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatında gənclərlə görüş keçirildi.

Görüşdə YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı prof. Şəmseddin Hacıyev Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illiyi ilə əlaqədar keçirilən mərasimdə bir çox məsələlərə diqqət çəkdiyini bildirdi. O qeyd etdi ki, dövlətimizin başçısının nitqi gənclər üçün proqram xarakterli idi. Prezident İlham Əliyev vurğuladı ki, gənclər Azərbaycan tarixini yaxşı bilməlidirlər. Bugünkü inkişafımızın, dövlətçiliyimizin memarının ümummilli lider Heydər Əliyev olduğunu unutmamalıdırlar. Azərbaycan Prezidenti dövlət müstəqilliyimizin əbədi və toxunulmaz olduğunu gənclərin diqqətinə çatdırdı.

"Xaricdəki qaranlıq qruplardan maliyyələşən bəzi şəxslər indi gənclərin beynini zəhərləməyə çalışırlar. Biz xalq olaraq həmişə mənəvi və əxlaqi məsələlərə böyük önəm vermişik. Bizim öz əxlaqi, mənəvi, əsrlərlə formalaşmış dəyər kodekslərimiz var. Azərbaycan dövləti öz dəyərləri üzərində inkişaf yolunu əsas prinsip kimi götürüb, bu yolda da inamla irəliləyir", - deyə Ş.Hacıyev qeyd etdi.

Görüşdə çıxış edən gənclər Azərbaycan Prezidentinin apardığı uğurlu siyasət barədə fikirlərini bildirdilər. Onlar Azərbaycanda dövlət tərəfindən gənclərə xüsusi diqqət yetirildiyini vurğuladılar və buna görə dövlətimizin başçısına minnətdarlıq etdilər.

Sonda Səbail rayon gəncləri adından cənab Prezident İlham Əliyevə müraciət qəbul olundu.

**Lamiyə Hacıyeva**